# Şəkillərim mahnılarıma, mahnılarımsa şeirlərimə bənzəyir

## Can Bonomo: "İşimin ən əyləncəli hissəsi əziyyətimin bəhrəsini insanlara təqdim etməkdir"



**Bu günün Azərbaycan gəncləri Türkiyə şou-biznesinə çox meyillidir. Əksəriyyəti də estrada ifaçılarının dinləyiciləridir. Türkiyə şou-biznesində elə üslubda ifa edənlər var ki, onlar sırf gənclərin zövqlərinə, könüllərinə xitab edirlər. Onlardan biri də gənc ifaçı Can Bonomodur.**

Onun ifa etdiyi mahnılarda bir sosial mesaj və sərbəstlik hökm sürür. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsində Türkiyəni təmsil etdikdən sonra ifaçının pərəstişkarlarının sayı artmağa başladı. O, ötən il "Anachronismus" adını verdiyi ifaçı, rəsm sərgisi ilə indi beynəlxalq "Kısa kes" film festivalının qonağıdır. Bonomo Türkiyə mətbuatına verdiyi müsahibəsində həm sərgisindən, həm də yeni albomunun hazırlıqlarından danışıb.

**- Beynəlxalq "Kısa kes" film festivalında "Anachronismus" adını verdiyiniz sərginin rəsmləri yer alıb. Necə oldu ki, bu festivalda iştirak etmək qərarına gəldiniz?**

- Festivalın təşkilatçısı Arya Su Altıoklar mənim yaxın dostumdur. O, bu iş üçün çox böyük əmək sərf edib. Dostum bu il mənimlə bir layihədə yer almaq istədiyini bildirdi. Düşündük və mən də şəkillərimlə bu festivala qatılmağa qərar verdim. Çox gözəl oldu. Belə bir layihədə yer aldığım üçün çox xoşbəxtəm.

**- Bəs, bu rəsmləri necə ərsəyə gətirirsiniz?**

- "Bulunmam gerek" albomunu hazırlayarkən həm rahatlamaq, həm də duyğularımı əks etdirmək üçün şəkillər çəkməyə başladım. Bir də onda ayıldım ki, artıq rəssam olmuşam və ortaya çox gözəl rəsm əsərləri çıxıb. Əl işimi paylaşdım və çəkdiyim rəsmlər cəmiyyət tərəfindən müsbət qarşılandı, çox bəyənildi. Bir də onda ayıldım ki, artıq rəssam kimi belə bir festivalda iştirak edirəm. Hər şey anidən oldu.

**- Bəs, çəkdiyiniz şəkillərdən ibarət yeni bir sərgi açmağı necə, düşünürsünüzmü?**

- Bəli. Amma indi sərgi açacaq qədər rəsmlərim yoxdur. Bu dəfə mahnı sözü yazarkən çox şəkil çəkə bilmədim. Hazırda bütün enerjimi yeni albomuma vermişəm. Studiyada səs qeydləri edirik. Şəkil çəkmək istərəm. Düzdür, indi əvvəlki Can deyiləm. Artıq böyümüşəm.

**- Mahnılarınızı yenə özünüz yazırsınız?**

- Bəli. Bundan əvvəl bir-iki köhnə mahnı ifa etmişdim. İndi də onun kimi bir mahnı ifa etmək istəyirəm. Ancaq fikirlərimdə əmin deyiləm.

**- Albomunuz nə zaman çıxacaq?**

- Karyeramın ilk başından belə, mənə bu sual veriləndə heç zaman ona cavab verməmişəm. İndi də elə etmək istəyirəm (gülür). Yaxşı, gəlin, sizə "dörd aydan sonra" deyim, elə olsun.

**- Bu albomunuzda da gənc kütləyə xitab edəcəksiniz?**

- O, bəlli deyil. Misal üçün, keçən albomumda güman edirdik ki, 14-20 yaş arası gənclər bu albomu çox bəyənəcək. Ancaq gözlədiyimiz kimi olmadı. Daha yaşlı nəsil həmin alboma maraq göstərdi. Məndəki ağırlıq da bir az ondan gəlir. Ancaq bu albomumda hesab edirəm ki, yenə gənclərə müraciət edəcəyik. Artıq bundan sonrakı albomda özümü toparlamağa başlayacağam.

**- Eşitdiyimizə görə, bu aralar şeir də yazırsınız.**

- Bəli, şeir yazmağı çox sevirəm. Hazırda jurnallarla əməkdaşlıq edirəm. Onlara şeirlər yazıram. Şair olaraq, şeirlərimdən ibarət bir kitabım da çıxıb. İkinci kitabın çıxması üçün artıq yeni şeirlər yazmağa başlamışam.





insandan böyük əmək tələb edir. Güman edirəm ki, növbəti il şəkillərimin sayı çox olacaq və o zaman mən də öz sərgimi açacağam.

**- Yeni albom demişkən, bu yeni albomda nələr olacaq?**

- Bu albom digərlərindən çox fərqlənəcək. Sizə necə izah edəcəyimi bilmirəm. İstəsəniz, musiqinin notlarını sizə verə bilərəm (gülür). Bircə onu deyə bilərəm ki, bu dəfə bir az daha sərt bir albom olacaq.

**- Artıq oldummu deyirsiniz?**

- Əksinə, olmadım. Hesab edirəm ki, bu albom əvvəlki albomumdan daha əyləncəlidir. Yeni albomum "Hoplayalım, zıplayalım, kaçalım" mesajını versə də, eyni zamanda, həzin musiqilər yer alıb. Yeni musiqi ilə daha çox bağırıb-çağırmaq istəyirəm. Yeni albomum işıq üzü görəndən sonra siz özünüz bunun şahidi olacaqsınız.

**- Əvvəllər daha çılğın idiniz. İndi sanki bir az kamilləşmisiniz.**

- (gülür) Ola bilər. Üzərindən nə qədər illər keçsə də hisslərim, duyğularım eynidir. Hansısa hisslərimin dəyişdiyini hiss etmi-

**- Müsahibələrinizin birində demişdiniz ki, "Şair olmaq istəyirəm". Oldunuzmu?**



- Şair olmağı çox istəyirəm. Uzun illərdən sonra - mən öləndən sonra "Bəli, o da şair idi, Allah rəhmət etsin" - demələrini istəyirəm.

**- İfaçısınız, şeir yazırsınız, şəkil çəkirsiniz. Bunların hamısını bir arada necə bacarırsınız?**

- Mən nə baytar, nə də mühəndisəm. Mənim seçdiyim sənətlərin hər üçü incəsənətin qollarıdır. Gördüyüm bütün işlərin hamısı incəsənətimizə xidmət edir. Diqqət etsəniz, görərsiniz ki, şəkillərim mahnılarıma, mahnılarımsa şeirlərimə bənzəyir. Yəni onların hamısının eyni başdan çıxdığı bəllidir. Əslində oturub düşünəndə heç nə ərsəyə gəlmir. Əslində, mən çox şey edə bilərəm, ancaq onları etmək üçün vaxtım yoxdur.

**- Hansı ruh halınızla bunları ərsəyə gətirirsiniz?**

- Hamımız insanıq. Hamımızın bir həyatı, ruh halı var. Siz işinizi edərkən ondan necə enerji alırsınızsa, mən də onun kimi. Səhər yuxudan oyanıb, işləməyə başlayıram. Əgər həmin gün şanslı günümdəyəmsə, işlərim uğurlu alınır. Uğur bir şeir, ya da bir bəstə ola bilər. Uğur əldə etmək üçün hər gün davamlı olaraq çalışmaq lazımdır. Bu bizə heç də asan başa gəlmir.

**- Bəzi sənətçilər kimi, sizə də nəsə yaratmaq üçün ilham pərisi gəlmirmi?**

- Məndə o ilham deyilən şey birdən gəlmir. Gözəl bir şey ortaya çıxarmağım üçün onun üzərində uzun müddət çalışmalıyam.

**- Konsertlərinizdə fərqli, normalda tamam fərqlisiniz. Can əsl həyatda necə bir insandır?**

- Qarışıq. Dediklərinizin hamısını birləşdirəndə ortaya Can Bonomo çıxır. Əslində bir otağa çəkilib özümə işgəncə verərcəsinə dayanmadan işləyirəm. İşimin ən əyləncəli yeri isə onu insanlara təqdim etməkdir. Bu da ya səhnə, ya da rəsm sərgisi olur. Əziyyətimin bəhrəsi olan işimi tamaşaçılarla paylaşdığım anlarda özümü çox xoşbəxt hiss edirəm. Çünki əziyyətimin qarşılığını alıram. Buna görə çox xoşbəxtəm.

**- Sosial şəbəkə ilə aranız necədir?**

- Təəssüf hissi ilə qeyd edirəm ki, çox az vaxt ayıra bilirəm. 3-4 il əvvəl sosial şəbəkədə çox aktiv idim. Sonra bəzi əngəllər çıxdı və mən o qədər də çox aludəçisi olmadım. Ona görə də bir az geri çəkildim. Ancaq bundan sonra daha aktiv olacağam. Çünki sosial şəbəkələri internetdəki kimliyimizin davamı hesab edirəm. Ona görə də bundan sonra daha aktiv olacağam.

**- Həyatınızda biri varmı?**

- Xeyr, yoxdur.

**- Təzəlikcə bir münasibətə nöqtə qoymusunuz. Özünüzü necə hiss edirsiniz?**

- Yaxşı olmağa çalışıram. Davamlı olaraq işləyirəm. Həyatımda xoşbəxtəm, ancaq güman edirəm ki, daha da xoşbəxt olacağam.

**- Yeni bir eşq yaşamaq istəyirsinizmi?**

- Lazım deyil.

**- Bu aralar sizi nə xoşbəxt edir?**

- Dostlarım.

**- Bəs ən çox nəyə kədərlənirsiniz?**

- Yalana məruz qaldığıma.

**- Nə üçün mətbuatdan uzaq durursunuz?**

- Bir dönəm mətbuatdan qaçmağa çalışdım. Mənim o qədər də hərəkətli bir həyatım yoxdur. Bu aralar dostlarımın evində qalıram. Başımın üstündə bir damım var. O damın altında olduğum müddətcə mətbuatla qarşılaşmıram.

**Hazırladı: Xəyalə Rəis**